Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Hər sərhədçi bir orduya bərabərdir!

**18 avqust – Sərhəd Qoşunları Günü** münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

**Tərtibçi:** **Nuray Əlizadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət İşçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Hər sərhədçi bir orduya bərabərdir!-** 18 avqust Sərhəd Qoşunları günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Əlizadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. -Bakı, 2023.-37s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

Bu gün Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günüdür. Vətən sərhəddən başlayır. Sərhədi ciddi və etibarlı qorunan Vətən həmişə əzəmətli görünüb. Eyni zamanda, sərhədi möhkəm qorunan dövlətin ticari və iqtisadi inkişafı qaçılmazdır, qlobal təhlükələrdən, xüsusən də terrorizmdən müdafiəsi etibarlıdır. Məhz bu gün sərhədlərimizin qorunması istiqamətində Azərbaycan dövlətinin əhəmiyyətli layihələri mövcuddur. Eyni zamanda qürurla qeyd etmək olar ki, ölkəmizin Silahlı Qüvvələrinin sırasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin peşəkarlıq səviyyəsi daim yüksəlməkdədir. Paytaxtda və bölgələrdə yeni sərhəd zastavalarının yaradılması və onların maddi–texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanda sərhəd xidmətinin fəaliyyətinin daha keyfiyyətli qurulmasından xəbər verir. Bu sırada sərhədçilərdə əsas diqqəti dövlət sərhədinin mühafizəsinin təkmilləşdirilməsinə, döyüş hazırlığının yüksəldilməsinə yönəltmişlər.

Azərbaycan sərhədçiləri bu gün çox şərəfli bir missiyanın öhdəsindən layiqincə gəlirlər. Onlar Vətən qarşısındakı borclarını fədakarcasına yerinə yetirirlər. Əslində onların bu işi Azərbaycan dövlətinin müstəqilliyinin daimi və əbədi olmasına böyük töhfədir. Dövlət sərhədimizin Azərbaycan sərhədçiləri tərəfindən qorunması milli dövlətçiliyin mühüm atributlarından olaraq, xalqımızın əmin-amanlıq şəraitində yaşaması üçün əsas təminatlardan biridir.

Azərbaycan sərhəd mühafizəsinin tarixi yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və qədim

ənənələrə malik dövlətçilik tariximiz üçün də əhəmiyyətlidir. Çünki dövlətlərin tarixi həm də onların sərhədlərinin tarixidir. Milli sərhəd mühafizəsini yaşadan və inkişaf etdirən Dövlət Sərhəd Xidməti keçmişinə ehtiram, gələcəyinə inam hissi ilə yanaşır, bugünündən qürur duyur. Bu hisslərin təməlində dövlət sərhədlərinin mühafizəsinə ən yüksək səviyyədə verilən önəm durur. Müstəqillik illərində Azərbaycan Ordusunun yaradılması, formalaşdırılması proseslərinə bilavasitə rəhbərlik edən Ulu Öndər Heydər Əliyev Sərhəd Qoşunlarının formalaşdırılması, ölkəmizin sərhədlərinin qorunması işinin təşkili istiqamətində əvəzsiz xidmət göstərib, milli sərhəd siyasətinin əsasını qoyub, sərhəd strategiyasını müəyyənləşdirib.

Ulu Öndər Heydər Əliyev sərhədlərimizin toxunulmazlığının təmin edilməsini dövlətimizin mühüm vəzifəsi kimi dəyərləndirmiş, sərhəd mühafizəsinin qarşısında duran vəzifələri, sərhəd siyasətinin konseptual müddəalarını müəyyənləşdirmiş, milli sərhəd strategiyasını yaratmış, bu strategiyanın əməli surətdə həyata keçirilməsini təmin edən konkret fəaliyyət istiqamətlərini göstərmişdir. Dövlət sərhədimizin Azərbaycan sərhədçiləri tərəfindən qorunması milli dövlətçiliyin mühüm atributlarından olaraq xalqımızın əmin-amanlıq şəraitində yaşaması üçün əsas təminatlardan biridir. Sərhədçilər vətənin daxilində sabitliyin, asayişin, inkişafın, tərəqqinin olmasını daim arzulayırlar. Məhz buna görə də sərhədçilər həm vətənin müdafiəsində, həm də dövlətçiliyin qorunub saxlanılmasında qəhrəmanlıq nümunələrini göstəriblər və bu gün də hər bir təhlükənin qarşısnı almağa hazırdırlar. Bu hisslərlə yaşayan

sərhədçilər döyüş hazırlığına xüsusi fikir verirlər. Dövlət Sərhəd Xidməti tərəfindən zəngin mədəniyyətimizin və qədim atçılıq ənənələrimizin beynəlxalq aləmdə təbliğatı məsələlərinə də ciddi töhfə verilir. Cari ilin may ayında DSX-nin atçılıq mərkəzinin süvarilər dəstəsinin və rəqs ansamblının təqdimatında Böyük Britaniyada "Vindzor Kral Atçılıq Şou"sunda "Azərbaycan kəlağayısı və Qarabağ atları" adlı möhtəşəm kompozisiya Birləşmiş Krallığın Kraliçası II Elizabetin, kral ailəsinin üzvlərinin və digər tamaşaçıların böyük marağına səbəb olmuş, Qarabağ atlarının Azərbaycanın milli-mədəni irsinə aid olmasını növbəti dəfə nümayiş etdirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında ardıcıl həyata keçirilən tədbirlər nəticəsində bu gün ölkəmizdə müasir tələblərə cavab verən güclü sərhəd mühafizə infrastrukturu yaradılmış, dövlət sərhədlərinin etibarlı mühafizəsində mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycan Sərhəd Mühafizəsi peşəkar kadrlarla, müasir silah və texnika ilə təmin edilərək qarşıya qoyulan tapşırıqları ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan qurum səviyyəsinə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrük rəhbərliyi və komandanlığı altında Silahlı Qüvvələrimiz tərəfindən yaxın müddətdə dövlətimizin ərazi bütövlüyünun təmin ediləcəyinə və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminliyimiz gündən-günə artır!

Beləliklə, qeyd edə bilərik ki, artıq bu gün ölkəmizdə nizami ordu səviyyəsində, çevik, mütəşəkkil, yüksək intizama və

döyüş hazırlığına malik, ən müasir texniki vasitələrlə təmin olunmuş Dövlət Sərhəd Xidməti mövcuddur. Heydər Əliyev ideyalarına, dövlətçiliyə, xalqa sədaqətini dəfələrlə nümayiş etdirən hər bir sərhədçi zabit, gizir, çavuş, əsgər və matros müstəqil ölkəmizin dövlət sərhədlərini gecə-gündüz sayıqlıqla qoruyur. Azərbaycanın müqəddəs sərhədləri etibarlı və inamlı əllərdədir.

## Dövlət Sərhəd Xidmətinin Tarixi

18 avqust 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılıb.




Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasından sonra 1919-cu ildə milli hökumətin qərarı ilə təsis edilən Hərbi Nazirliyin tərkibində ölkənin bir sıra güc strukturları, o cümlədən Sərhəd Qoşunları fəaliyyətə başlayır. Sovet İttifaqı dövründə Sərhəd Xidməti Dövlət Təhlükəsizlik Komitəsinin bir strukturu kimi fəaliyyət göstərib.

1991-ci ilin 18 oktyabrında "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etdikdən sonra milli dövlət quruculuğunun bərpası işlərinə başlanıldı. Həmin illərdə

dövlət sərhədinin mühafizəsi, əsasən şəxsi heyətin fiziki imkanları və SSRİ dövründən qalmış, fiziki və mənəvi cəhətdən köhnəlmiş mühəndis-texniki qurğular və texniki vasitələr hesabına həyata keçirilir, şimal və şimal-qərb istiqamətində yaradılmaqda olan sərhəd məntəqələri vaqonlarda, çadırlarda və ən yaxşı halda, uyğunlaşdırılmış binalarda yerləşirdi.

Və daha sonra, ölkə prezidentinin 2000-ci il 16 avqust sərəncamı ilə avqustun 18-nin Azərbaycanda Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunması qərara alınıb. Bundan sonra, Dövlət başçısının 2002-ci il 31 iyul tarixli fərmanı ilə isə Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Dövlət Sərhəd Xidməti yaradılıb. Həmin fərmanla Dövlət Sərhəd Xidmətinin rəisi — Sərhəd Qoşunlarının komandanı təyin edilib.

Müstəqillik əldə ediləndən sonra Sərhəd Xidməti Milli Təhlükəsizlik Nazirliyinin tərkibində olub. Dövlət Sərhəd Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni və Dövlət Sərhəd Xidmətinin normativ hüquqi aktlarını rəhbər tutur.

Dövlət Sərhəd Xidməti ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyindəki hərbi hissələr və digər orqanları

vasitəsi ilə həyata keçirir. Dövlət Sərhəd Xidmətinin strukturuna baş idarələr, idarələr, şöbələr və digər qurumlar daxildir. Dövlət Sərhəd Xidmətinin mərkəzi aparatı, sərhəd dəstələri, hərbi dəniz və hərbi aviasiya hissələri, sərhəd nəzarəti dəstələri, hərbi hissələr, habelə digər struktur bölmələr Dövlət Sərhəd Xidmətinin vahid sistemini təşkil edir.

Dövlət Sərhəd Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına riayət, qanunçuluq, humanistlik və Silahlı Qüvvələr quruculuğunun təşkilat prinsipləri əsasında qurur.

Dövlət Sərhəd Xidmətinin 2 tərkib hissəsi mövcuddur:

***1.Sahil Mühafizəsi***



Azərbaycan Dövlət Sərhəd Xidmətinin Xəzər hövzəsi sularında DSX funksiyalarını yerinə yetirən bölməsidir. 2001-ci ildə, Azərbaycan Türk Donanması ilə əməkdaşlıq apararaq xüsusi qüvvələr birləşməsi Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsini qurdu.

*2.Çevik Hərəkət Dəstəsi*



- Yaşıl beretlilər kimi tanınan Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkat Xidməti, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirir.

## *Sərhəd qoşunları Vətən müharibəsində*

27 sentyabr 2020-ci ildə başlayan 44 günlük Vətən savaşında DSX hərbçiləri böyük şücaət göstərmişdir. Vətən müharibəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətən müharibəsinin döyüş əməliyyatları zamanı rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 nəfər Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfəri müxtəlif ordenlərlə, 5203 nəfəri isə müxtəlif medallarla təltif olunub. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə yenı zastavalar yaradılmışdır.

Eyni zamanda DSX pilotları Abbas Qasımov və Xalid Gözəlov da müharibının ilk günü şəhidlik zirvəsinə ucaldılar. Sentyabr toqquşmalarənda Dövlət Sərhəd Xidmətinin 9 hərbi qulluqçusu, Qaraheybət helikopter qəzasında 14 hərbi qulluqçusu şəhid olmuşdur.

## DSX Vətən Müharibəsi Qəhrəmanları

1. Amin Novruzov (kiçik gizir) (ölümündən sonra)
2. Nail İbrahimli (ölümündən sonra)
3. Azər Yusifli (ölümündən sonra)
4. Şahin Allahyarov (ölümündən sonra)
5. Elvin Səfərov (mayor)
6. Anar Məmmədov (hərbçi)
7. Röyal Quliyev
8. Şahin Hüseynquliyev
9. Vüsal Sultanov
10. Babək Qurbanov (hərbçi)
11. Babək Ələkbərov
12. İlham Mehdiyev

## DSX Şəhidləri

1. Malik Əliyev
2. Abbas Qasımov (mayor)
3. Aşur Cəmiyev
4. Elməddin Meydanov
5. Elçin Əzizov (baş leytenant)
6. Xalid Gözəlov
7. Ceyhun Nəhmətov
8. Murtuz Abbasov
9. Habil Əbdürrəhimli

10. Məhəmmədəli Ələkbərov
11. Rüfət Əliyev (gizir)
12. Vüsal Əliyev (gizir)
13. Tofiq Əmirli
14. Nicat Səmədov
15. Xudayar Yusifzadə
16. Davud Abasov
17. Mirsədi Bağırlı
18. İmamalı Hüseynov
19. Elnur İbrahimov (kiçik gizir)
20. Sultan İbrahimov
21. Əşrəf Məmmədli
22. Əli Məmmədov (kiçik gizir)
23. Mirağa Qasımov
24. Xalid Qasımov
25. Fərid Quliyev (kiçik gizir)
26. Əlizamin Ramazanlı
27. Orxan Quluzadə
28. Daşqın Rzalı
29. Zamin Rüstəmov
30. Səyyad Şıxıyev
31. Alim Şükürov
32. Şahin Tağıyev
33. Təbriz Talıbov
34. İlkin Xosrovzadə
35. Rəvan Əliyev
36. Vüsal Hüseynov
37. Səbuhi İsgəndərli
38. Alim Şükürov
39. Şahin Tağıyev (kiçik gizir)

40. Faiq Qalayçiyev
41. Mürtaza Qasımov
42. Mehtab Quliyev
43. Cəbrayıl Dövlətzadə

# Azərbaycan Respublikasının Dövlət Sərhədi




**Azərbaycan Respublikasının Dövlət Sərhədi** —

Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir. Azərbaycan Respublikasının Dövlət Sərhədi Azərbaycan Respublikasının dövlət suverenliyinin ərazi hüdududur. Azərbaycan Respublikasının sərhədinin uzunluğu 3360 km, o cümlədən quru sərhədlərinin 2648 km-dir və su sərhədlərinin uzunluğu 816 km-dir. Azərbaycan Respublikası şimalda Rusiya___Federasiyası ilə 390 km, şimal-qərbdə Gürcüstan ilə 471 km, qərbdə və cənub-qərbdə Ermənistan ilə 1007 km, qərbdə Türkiyə ilə 15 km və cənubda İran 765 km ilə həmsərhəddir. Şərqdə sərhədlərin ümumi uzunluğu 713 km olan Xəzər dənizi yuyur.

Rusiya Federasiyası ilə sərhəd xətti Samurçay, Sudur silsiləsi və Baş Qafqaz silsiləsinin yal hissəsindən keçir. Gürcüstanla sərhədi, əsasən, Qanıxçay ilə Qabırrıçayın və Kür ilə Qabırrıçayın suayırıcısı təşkil edir. Ermənistanla sərhədi, əsasən, Murğuz, Şahdağ və Şərqi Göyçə silsilələri və Qarabağ yaylası ilə ayrılır. Türkiyə və İran ilə sərhədini çox yerdə Araz, Bolqarçay, Astaraçay və Talış dağları təşkil edir. Biləsuvardan Araz çayına qədər 50 km-lik məsafədəki sərhəd Muğan düzündən keçir.

## Dahi şəxsiyyətlərin Sərhəd Qoşunları haqqında söylədikləri sitatlar

"Sərhədlərin qorunmasında xidmət göstərən hər bir kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir".

**Heydər Əliyev,**
*Ümummilli lider*

. "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir".

**Heydər Əliyev**,
*Ümummilli lider*

"Sərhəd xidmətinin formalaşması işində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra, demək olar ki, sərhədlərimiz açıq idi. Sərhəd infrastrukturu mövcud deyildi. Əvvəlki illərdə yaradılmış sərhəd infrastrukturu isə dağıdılmışdı. Bizim demək olar ki, bütün sərhədlərdə heç bir infrastruktur yox idi. Ulu öndərin rəhbərliyi altında qısa müddət ərzində bütün sərhədlərimizdə tikinti-quruculuq işləri

başlamışdır, sərhəd mühafizə infrastrukturu yaradılmışdır və bu proses bu gün uğurla davam etdirilir”.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı.*

”Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Çünki hər bir ölkənin ərazisi onun sərhədindən başlayır. Bizim sərhədlərimiz dost üçün açıq, düşmən üçün bağlı olmalıdır. Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır... Sərhəd bölgələrində olarkən daim sərhəd dəstələrinə baş çəkirəm, vəziyyətlə tanış oluram, sərhədçilərlə görüşürəm. Hər dəfə mən inkişafı görəndə, yeni texnikanı, yeni avadanlığı görəndə bir daha əmin oluram ki, bizim sərhədlərimiz etibarlı şəkildə qorunur”.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

“Lazım gələn anda bütün hərbi qurumlar bir yumruq kimi hərəkət edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək”.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

“Azərbaycan öz xarici siyasətini xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir və bu xarici siyasət uğurludur. Bizim bütün qonşularla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda Azərbaycanın nüfuzu və rolu artır“.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

“Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır."

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

Lazım gəldikdə vətən üçün vahid bir fərd olaraq qətiyyətlə və qərarla necə çalışacağını bilən bir millət, əlbəttə ki, böyük bir gələcəyə layiq olan və namizəd olan bir millətdir.

**Mustafa Kamal Atatürk,**
*Türkiyə Cumhuriyyətinin qurucusu*

“Sərhəd təhlükəsizliyimizə qarşı yönələ bilən istənilən təhdidin qarşısı qətiyyətlə alınır" .

**Elçin Quliyev**
*General-Polkovnik*

10. “Vətən zəhmətkeş insanların çiyinləri üzərində ucalır”.

**Tofik Fikrət**
*Şair*

## Rəsm müsabiqəsi

18 avqust Sərhəd qoşunları günü münasibəti ilə kitabxanada rəsm müsabiqəsi keçirmək olar. Müsabiqəyə 4-10 yaş aralığında uşaqların iştirakına icazə verilir. Öncədən söylənilmiş tarixdə uşaqlar kitabxanaya gələrək onlar üçün xüsusi ayrılmış otaqda şəkilləri çəkib, sonda ad, soyadlarını qeyd edərək metodistə təhvil verirlər. Müsabiqə sayəsində uşaqların xəyal dünyasının nə qədər zəngin olduğunu görə bilərik. Sonda qalibə kitabxana tərəfindən maraqlı nağıl kitabları hədiyyə olunur. İndi isə sizə həmin şəkilləri təqdim edirik.






Hikmat Mirzayev (XTQ)
General leytenant


DSX
N. Saida


QARABAĞ




Шуша

# Şeir müsabiqəsi

Kitabxananın kiçik oxu zalında şeir müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqədə iştirak etmək istəyən kiçikyaşlılar öncədən təyin olunmuş zamanda kitabxanaya gələrək müsabiqəyə qatıla bilərlər. Mövzu ilə əlaqədar düzgün intonasiyalı söylənilən şeir qalib sayılacaq.

Kitabxana rəhbərliyi qalib iştirakçını maraqlı kitablarla mükafatlandıracaq. Həmin şeirlərdən bir neçə nümunəni sizlərə təqdim edirik.

## Seymur Əliyev, “Hər sərhədçi bir orduya bərabərdir”.

44 günlük müharibədə, tarix yazdı sərhədçilər

Düşmənlərə hər addımda, məzar qazdı sərhədçilər

Yenilməzdi, sarsılmazdı, yorulmazdı sərhədçilər

Hər hücumu bəri başdan qazanılmış bir zəfərdir

Hər sərhədçi dar məqamda bir orduya bərabərdir

Düşmənləri pualarla, dronlarla məhv edən siz

Füzulidən, Cəbrayıldan işğalçını qəhr edən siz

Zəngilanda düşmənləri al qanına qərq edən siz

Sərhədçilər məğlubiyyət tanımayan cəngavərdir

Hər sərhədçi dar məqamda bir orduya bərabərdir

Düşmənlərdən təmizlədiz Şuşa adlı qanımızı
Siz sarıdız, siz sağaltdız Şuşa adlı yaramızı

Sevindirir xalqımızı, anamızı, atamızı
Bu nə böyük bir xoşbəxtlik
Bu nə böyük bir şərəfdir
Hər sərhədçi dar məqamda bir orduya bərabərdir!

## Xanım Aydan, "Mətin sərhədçi".

Yurdun üstü qoruq, altıysa mədən...
Ucadır hörməti hər ehtiramdan...
Sərhəd məftilindən başlamır Vətən!
Başlanır sərhədsiz arzudan, kamdan!

Uzanır sərhədi Azərbaycanın,
Bura qona bilməz quş quşluğuyla!
Başlanır torpağı dağın, aranın,
Bu yerdə mətindir daş daşlığıyla!

Qəlbində min körpə dilək bəsləyib,
Ən bədxah niyyətlər daşa tutulub.
Həmişə vətənin müqəddəsliyi,

Namusla, qeyrətlə qoşa tutulub!

Tapşırıq veribdir Ali Komandan,
Sərhəddə ayıqdır hər zabit, əsgər!
Ana yuxuları qarışan zaman,
Birinci ağrını sərhədçi çəkər!

Odur sinəsini çəpər eyləyən,
Vətəni dolanan ayaq izidir.
Qabaqda özünü sipər eyləyən,
Mətin Azərbaycan sərhədçisidir!

## Oqtay Rza, “Sərhədçilər marşı”.

Qürurumuz - müstəqil
Azərbaycan dövləti,
Ərzi gəzib dolaşır
Yurdumuzun şöhrəti.
Əzəl gündən müqəddəs
Borc bilib bu xidməti -
Keşikdəyik - Quzeydə,
Şərqdə, Qərbdə, Güneydə;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!
Hər sayıq, qoçaq əsgər,
Dəyanətli general,

İstəyir dinc yaşasın
Bütün ölkə, el, mahal.
Sönməyən çırağımız -
Düz əqidə, saf amal.
Kəsərsizdir təxribat,
Siyasi züy də, küy də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

Fədakarlıq rəmzidir
Rütbə, nişan, fəxri ad;
Məntəqələr möhtəşəm,
Meydanlar - geniş, abad.
"Sağ ol" deyir Balakən,
Lerik, Qusar, Ordubad...
"Sağ ol" deyir qocaman
Babadağ da, Avey də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

Uğurlu təlim, sınaq,
Bürkü, külək, qar olur,
Fəqət ürəyimizdə
Qışda da bahar olur;
Casus, xəbis, riyakar
Yaxalanıb xar olur.
Canımızdan əzizdir
Quru da, su da, göy də;
Biz Vətən qoruyuruq
Quruda, suda, göydə!

## Lətif Babayev, “Azərbaycan əsgəri”.

Yenə tarix yaradır, yeni tarix yazırsan,
Düşmənin məzarını əllərinlə qazırsan.
Vətən qurtulsun deyə, son savaşa hazırsan.
Sən Şuşa qalasında çalacaqsan zəfəri,
Azərbaycan əsgəri.

Keçdiyin zəfər yolu şanlı soyundan gəlir,
Yurdu azad etdikcə qalib səsin yüksəlir.
Bayrağım əllərinlə zirvələrə dikəlir
Son baharda yurdumun ilk bahar müjdələri,
Azərbaycan əsgəri.

Ayağın toxunduğu torpaqlarım gül açır,
Başı ucalan Vətən günəş tək şəfəq saçır.
Qarşında tab gətirmir düşmən səngərdən qaçır,
Səndən güc alır ellər, uca dağ zirvələri,
Azərbaycan əsgəri.

Sən tarix səhnəsində hər vaxt qalib olmusan,
Torpağına göz dikən yağıdan bac almısan,
Neçə zəfərlər çalıb, qüdrətlə ucalmısan.
Yenə sənin olacaq Qələbə çələngləri,
Azərbaycan əsgəri.

Dağları arxa bildin, sənə dayaq oldular,
Vətənin xilas günü mərd ərlər doğuldular,
Quşqonmaz qayalarda şahintək şığıdılar.

Uğuruna sökülür yenə dan şəfəqləri,
Azərbaycan əsgəri.

Al Gəncəmin, Bərdəmin, Tərtərimin qisasın,
Uşaq qatillərini susdur, səsi çıxmasın.
Elə qov ki düşməni bir də geri baxmasın,
Təmizlə torpağımı, aydınlat üfüqləri,
Azərbaycan əsgəri.

Cənubdan gələn yolun, Xudafərin dualı,
Qaytar dağ vüqarını, qıy vuran qartalımı,
Bir qarış da vermə sən yağıya torpağımı,
Vətən sənə əmanət, xalqımın cəngavəri,
Azərbaycan əsgəri.

O qabaran köksündə şir ürəyi döyünür,
Vətən bir nəfər kimi bu gün sənlə öyünür,
Hərbdə aslan tək coşur, sülhə məcbur eləyir,
Qədəminə gül səpir bu gün Vətən göyləri,
Azərbaycan əsgəri.

Əz düşmənin başını, dirçəlməsin bir də qoy!
Sıranda birləşibdir neçə millət, neçə soy.
Qoy deməsin analar "Torpağım oy, Vətən oy!",
Sapla düşmən köksünə o qan daman xəncəri,
Azərbaycan əsgəri.

## Mehriban Qənbərova, “Şanlı Ordumuza”.

Öndərdən qalıb miras Azərbaycan ordusu,
Alır düşməndən qisas Azərbaycan ordusu,
Mərddir döyüşdə-darda, yox kimsədən qorxusu,
Vətəni qorumaqdır ən müqəddəs arzusu.

Keçmişin sədasıdır, qalıb qulağında səs:
Vətən heç vaxt bölünməz, ana torpaq müqəddəs.
Tariximiz yaşadır mərdləri nəfəs-nəfəs,
Şanlı ordu çox yaşa, xalqımızdan al həvəs.

Müqəddəsdir şəhidin üstündəki lalə qan.
Günəşdir, sabah-sabah göydə sökülləndə dan.
Kafir oğlu, külə dön bir alovlan, bir də yan!
Azərbaycan ordusu, düşmənə getsin qadan!

Ayağın polad kimi əzsin ilan-düşməni,
Yeri-yurdu olmayan əsli yalan düşməni.
İrəvanı da bizdən alıb-çalan düşməni,
Azərbaycan ordusu, dağla qalan düşməni!

Baş komandan əmr etsə, ordu hər an müntəzir,
Əldə bayraq ordumuz qələbəyə tələsir.
İgid, mətin oğullar sütunudur millətin.
Mərd əsgərim, bəllidir düşmənlərə qeyrətin.

## Ədalət Fətəli, “Ordumuz”

Apreldə yağıya endirib zərbə,
Göstərdi cəsurluq, dözüm, ordumuz!
Düşməni məhv etdi, baş vurub hərbə…
Ən güclü ordudur bizim ordumuz!

Bircə “Qalx” sözüylə ayağa durdu,
Vətən əsgərləri düşməni vurdu!
Haylara dərs verib, qulağın burdu,
Göstərdi silahın, özün, ordumuz!

Bu gün bir əsgərdir hər bir vətəndaş…
Düşmən qorxu çəkir, keçirdir təlaş!
Komanda gözləyir, bitməyib savaş
Hələ tam deməyib sözün ordumuz!

Gözü yollardadır dağların, düzün…
Bu gün meydan hərbin, torpaqlar bizim!
Lələtəpə kimi, qələbəmizin
Bəxş edər Vətənə yüzün, ordumuz.

# VİKTORİNA

Kitabxananın kiçik oxu zalında metodist məktəblilərlə birgə viktorina təşkil edə bilər. Viktorinada 18 avqust - Sərhəd Qoşunları Günü münasibəti ilə hazırlanmış sualları metodist məktəblilərə təqdim edir. Həmin sualları sizlərə təqdim edirik:

1.Sərhəd Qoşunları Günü nə zamandır?

Cavab: 18 avqust

2.Kimlərə sərhədçi deyilir?

Cavab: Sərhədlərimizi qoruyan əsgərə sərhədçi deyilir.

3.Sərhədçilərlə bağlı hansı şeirləri bilirsiniz?

Cavab: Lətif Babayev, “Azərbaycan əsgəri”, Xanım Aydan, “Mətin sərhədçi”, Ədalət Fətəli, “Ordumuz” Mehriban Qənbərova, “Şanlı Ordumuza”

4.Dövlət Sərhəd Xidmətinin neçə tərkib hissəsi mövcuddur?

Cavab: 1.Sahil Mühafizəsi 2.Çevik Hərəkət Dəstəsi

5.Azərbaycan hansı ölkələrlə sərhəddir?

Cavab: Rusiya, Gürcüstan, Ermənistan, Türkiyə, İran.

6. Sərhəd sözündə neçə sait və samit var?

Cavab: 2 sait, 4 samit

7. Silahlı Qüvvələrin Ali Baş Komandanı kimdir?

Cavab: İlham Əliyev

8. Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü neçənci ildə qəbul olunub?

Cavab: 2000-ci il

## Hekayə müsabiqəsi

Mövzu ilə bağlı azyaşlı uşaqlar üçün kitabxanada hekayə müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqəni kitabxananın kiçik oxu zalında məktəbyaşlı uşaqlar arasında keçirmək nəzərdə tutulur. Burada kiçik oxucular öz yaradıcılıqlarını daha maraqlı bir şəkildə ifadə etmə bacarıqlarını artırırlar. Kitabxanaçı müsabiqənin kitabxanada təşkil ediləcəyi haqqında oxuculara məlumat verir, şərtlərlə tanış edir. Müsabiqədən əvvəl iştirakla bağlı kitabxananın rəsmi saytında elan yerləşdirilir. İştirak etmək istəyən hər bir oxucu öncədən təyin olunmuş zamanda inşasını təqdim edir. Sonda rəhbərlik tərəfindən seçilmiş qalib mükafatlandırılır.

# Müsabiqənin qaydaları

1. Mövzunun tamamı Sərhəd qoşunlarını əhatə etməlidir.
2. Müsabiqədə iştirak üçün elanlarda yazılmış tarixlər arasında qeydiyyatdan keçmək lazımdır.
3. Hekayələr Microsoft Word mətn redaktorunda A4 formatında, Times New Roman şrifti ilə 12 pt. ölçüdə hazırlanmalıdır.
4. Müsabiqə qalibləri kitabxana tərəfindən maraqlı kitablarla təltif olunacaq, həmçinin internet saytında hekayəsi paylaşılacaqdır.

Bu gün ölkəmizdə nizami ordu səviyyəsində, çevik, mütəşəkkil, yüksək intizama və döyüş hazırlığına malik, ən müasir texniki vasitələrlə təmin olunmuş Dövlət Sərhəd Xidməti mövcuddur. Heydər Əliyev ideyalarına, dövlətçiliyə, xalqa sədaqətini dəfələrlə nümayiş etdirən hər bir sərhədçi zabit, gizir, çavuş, əsgər və matros müstəqil ölkəmizin dövlət sərhədlərini gecə-gündüz sayıqlıqla qoruyur. Azərbaycanın müqəddəs sərhədləri etibarlı və inamlı əllərdədir.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı hazırladığı ədəbiyyat siyahısı**

## Kitablarda

**Qurbani A**. Müqəddəs sərhədlərimizin keşiyində : kitab - albom. - Bakı : Əbilov, Zeynalov və oğulları, 2004. - 320 s.

Sərhədçilər arasında ilk Azərbaycanlı general : Sənədlər, fotolar, xatirələr. - Bakı : Apostrof, 2008. - 240 s.

## Dövrü mətbuatda

**Abbasquliyev M.** Müstəqil Azərbaycanın sərhəd mühafizəsinin yaradıcısı // Respublika. - 2013. - 1 may. - № 92. - S. 3.

Azərbaycan Respublikası Dövlət **Sərhəd** Xidmətinin Akademiyasının yaradılması haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (12 iyun 2007-ci il) // Azərbaycan. - 2007. - 13 iyun . - S.2.

Azərbaycan Respublikası Dövlət **Sərhəd** Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 avqust 2007-ci il) // Xalq qəzeti. - 2007. - 17 avqust. - S.1.

Azərbaycan Respublikası Dövlət **Sərhəd** Xidmətinin hərbi qulluqçularına və mülki işçilərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 avqust 2018-ci il) // Xalq qəzeti. - 2018. - 17 avqust. - № 183. - S. 1.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət **Sərhəd** Xidmətinin strukturu"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (20 iyun 2008-ci il) // Xalq qəzeti. - 2008. - 22 iyun. - S. 1.

Azərbaycan Respublikasının Dövlət **Sərhəd** Xidmətinin Akademiyasının Nizamnaməsi : Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir // Respublika. - 2016. - 10 iyul. - № 146. - S. 4-5.

**Azərbaycan** Sərhəd **Mühafizəsinin** 90 illiyi (1919-2009) Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə
Azərbaycan Respublikası Prezidentinin Fərmanı (14 may 2009-cu il) // Azərbaycan. - 2009. - 17 may. - S. 1.

**Azərbaycanın** sərhəd **Qoşunları:** 90 illik çətin və şərəfli yol // Xalq qəzeti. - 2009. - 19 avqust. - N 182. - S. 2.

**Bayramova Y**. Sərhəd Qoşunlarımızın keçdiyi tarixi yol : Vətən sərhəddən başlayır. 104 yaşlı DSX // Yeni Azərbaycan. - 2023. - 18 avqust. - № 147. - S. 8.

**Bayramova Z**. 18 Avqust Sərhəd Qoşunları Günüdür : Prezident İlham Əliyev: "Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır" // Səs. - 2019. - 17 avqust. - № 148. - S. 7.

**Cəbrayılov A**. Azərbaycan Sərhəd Mühafizəsi: tarix və bu gün // Xalq qəzeti. - 2009. - 18 avqust. - N 181. - S. 3.

**Cəbrayılov A.** Vətən sərhədlərinin keşiyində // Azərbaycan . - 2008. - 17 avqust. - S. 2.

**Cəfərli R**. Vətən sərhədlərinin keşikçiləri : 18 avqust Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günüdür // Azərbaycan. - 2014. - 17 avqust. - № 176. - S. 1.

**Cumayeva N**. Müqəddəs Vətənin keşiyində : Sərhəd Qoşunlarının yaranmasının 99 illiyi münasibətilə // Respublika. - 2018. - 17 avqust. - № 182. - S. 3.

**Ələddinqızı N**. Azərbaycan sərhədləri sayıqlıqla qorunur : İlham Əliyev : "Sərhədlərimiz dostlarımızın üzünə açıqdır. Ancaq Azərbaycana pis niyyətlə gəlmək istəyənlər buna nail ola bilməyəcəklər" // Səs. - 2015. - 31 iyul. - № 138. - S. 2.

**Fərəcova Z**. İlk Azərbaycanlı sərhədçi general : Mustafa Nəsirov haqqında // El. - 2010. - № May. - S. 4-13.

**Fərəcova Z**. Sərhədçi ömrü : General-Leytenant İnayət Xəlilov haqqında // El. - 2010. - № Iyun. - S. 18-29.

**Xəlilov C**. Müqəddəs sərhədlərin keşiyində : 18 avqust Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günüdür // Respublika. - 2014. - 14 avqust. - № 173. - S. 2.

**Quliyev E**. Azərbaycan sərhədlərinin mühafizəsində yeni mərhələ : Ölkəmizdə sərhəd xidməti sistemi güclənmişdir // Azərbaycan. - 2006. - 10 noyabr. - S.4.

**Quliyev E**. Dövlət sərhədinin mühafizəsi hər bir Azərbaycan sərhədçisinin şərəf işidir // Respublika. - 2022. - 18 avqust. - № 175. - S. 5.

**Quliyev E.** Ölkəmizin sərhədləri etibarlı şəkildə qorunur : Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi // Azərbaycan. - 2014. - 17 avqust. - № 176. - S. 3.

**Qurbanova N**. Vətən sərhədən başlayır... : 18 avqust Sərhədçilər Günüdür // Respublika. - 2011. - 18 avqust. - № 175. - S. 3.

**Qurbanqızı Z**. Azərbaycan sərhədlərinin müdafiəsi və mühafizəsi etibarlı əllərdədir // Respublika. - 2020. - 2 fevral. - № 22. - S. 5.

**Qurbanqızı Z.** Müstəqil Azərbaycanın Sərhəd Mühafizəsinin təşkili, yaradılması və inkişafı ulu öndər

Heydər Əliyevin adı ilə bağlıdır : Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi // Respublika. - 2019. - 18 avqust. - № 178. - S. 2.

**Məmmədov E**. Ulu öndər Heydər Əliyevin **s**ərhəd siyasətinin təntənəsi // Xalq qəzeti. - 2007. - 14 iyun. - S.6.

**Məmmədov Z**. Müstəqil Azərbaycanın ilk milli sərhəd dəstəsi Naxçıvanda yaranmışdır // Xalq qəzeti. - 2007. - 12 avqust. - S.3.

Müasir Azərbaycanın dövlət **sərhəd**ləri yüksək səviyyədə qorunur : Dövlət **Sərhəd** Xidmətinin "**Sərhəd**çi" istirahət mərkəzinin açılışı // Azərbaycan. - 2007. - 18 avqust. - S.1.

**Naxçıvanda** Sərhəd **Qoşunlarının** yaradılmasının 90 illik yubileyi qeyd olunmuşdur // Azərbaycan. - 2009. - 19 avqust. - N 182. - S. 3.

**Nəhmətoğlu Q.** Milli Sərhəd Qoşunlarımız: : 18 avqust Azərbaycan Sərhəd Qoşunlarının yaranması günüdür // Mədəniyyət. - 2008. - 14 avqust. - S. 3.

**Rüstəmli N**. Sərhədlərimizin mühafizəsi ölkəmizin təhlükəsizliyinə təminatdır // Respublika. - 2008. - 16 avqust. - S. 2.

**Rza O**. Sərhədçiyik biz : Marş // Respublika. - 2019. - 18 avqust. - № 178. - S. 3.

**Rza O**. Vətəni qoruyan sərhədçiyəm mən! // Respublika. - 2014. - 21 avqust. - № 179. - S. 4.

**Rzalı R**. Vətən sərhəddən başlayır : 18 avqust Sərhəd Qoşunları günüdür // Azərbaycan. - 2012. - 18 avqust. - № 184. - S. 4.

**Rzalı R**. Vətənin başlandığı yer : 18 avqust Sərhədçilər Günüdür // Azərbaycan. - 2011. - 18 avqust. - № 181. - S. 3.

**Sadiq B. S**ərhədç**i** ömrü : poema // Azərbaycan. - 2010. - № 11. - S. 117-123.

Sərhəd **Qoşunlarının yaradılmasının** 89-cu ildönümü qeyd olunmuşdur // Xalq qəzeti. - 2008. - 19 avqust. - S. 2.

**Sipehri S**. İlğım ; Əhvalat ; İtmiş sərhəd və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2014. - 10 oktyabr. - № 39. - S. 10.

**Şahsevənli Z**. Sərhəd Mühafizəsinin dinamik inkişafı uğurla davam etdirilir : Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi // Respublika. - 2014. - 17 avqust. - № 176. - S. 2.

**Vəfa Z**. Dövlət sərhədlərimizin sadiq kşikçiləri : 18 avqust Sərhəd Qoşunlarının Peşə Bayramı Günüdür // Azərbaycan. - 2006. - 18 avqust. - S.5.

# Hər sərhədçi bir orduya bərabərdir!

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nuray Əlizadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**